

*Ramiz DUYĞUN*

# ZƏFƏR ANI

*(Sentyabrın 27-də İkinci Qarabağ Vətən müharibəsinin başlanmasından iki il keçir)*

27 sentyabr
Tarixdə Zəfər anı,
Bir əbədiyyət anı.
Yazılmağa başladı bu gündən
QALİBİYYƏT DASTANI.
Prezident əmr elədi:
"Qalx! İrəli!"
Hamı bi-bir ələndi,
Hər şey br-bir ələndi.
Tariximiz silkələndi,
Torpağımız silkələndi
Qalxdı dağlı-dərəli.

Dağ da, daş da
Silkələnib yarıldı.
Yağıların ayaqları dəyən yerlər
Param-parça ayrıldı.

Yaranışdan qüvvədədir
Bu torpağın bir qanunu, meyarı:
"Düşmənləri kül eləsin,
Qalib Odlar Diyarı!
Yad südünü, öyüdünü göy ər əmməz!
Od püskürən bu torpaqda
Yağı izi göyərəmməz!"...

Qəhrəman millətimiz
Daşan selə-suya döndü,
Dağı-daşı,
Yarıb oydu.
Daşnak adlı zir-zibili,
Torpaqlardan
Qovub yudu...
Qarı düşmən hər addımda
Ölüm gördü, qan gördü!
Daşnakların ayaqları dəyən yerlər
Alov, ataş püskürdü.
Axıradək tam boşaldı
Dolu güllə darağımız.
Azad olan torpaqlarda dalğalandı,
ÜÇRƏNGLİ BAYRAĞIMIZ...

Nağıllarda olduğu tək
Qoç Koroğlu öndə çapdı,
Dəmir-polad Qıratının belində
Misri Qılınc əlində.
Yağılara qan uddurmaq duyğusu
Cuşa gəldi qanında.
Xan Eyvazı, Dəli Həsən,
Halaypozan.
Cünun Ozan,
Dəmirçioğlu,
Yeddi min yeddiyüz
Yetmiş yeddi
ağıllı
Dəlisi də yanında.
Andları da bir idi:



"Yandı var, söndü yoxdur!
Öldü var, döndü yoxdur!"

Döyüşdəydi Babəkim!
Şuşaya uzalıydı,
Səkkizinci əsrdə
Baltalanmış qolları!
Azərbaycan Ordusunun əlində
Zəfər kələfi idi
Qələbənun yolları!

Azərbaycan əsgəri
Birinci Qaraba] döyüşlərində
Müvəqqəti
Olan məğlubiyyəti
Olmamış tək unudub,
QAnı sel kimi axan
Cavan, şirin canını
Qanlı dişinə tutub
Ulu babaları tək,
Coşdu,daşdı, qaynadı.
Vaxtsız gələn ölümlə
Qaçdı-tutdu oynadı:
"A teşti, teşti, teşti!
Güllə sinəmi deşdi!
Belə ölümün sonu,
ŞəhidlıiyinCənnəti,
Şəhidliyin Behişti!"

Yaralı sinəsiylə
Daşnak səngərlərini
Beləcə yarıb keçdi...
Döyüşdəydi tankıyla
İyirminci yüzilin
Qırxbir, qırxbeş ilində
Hitleri faşizmiylə
Tank altına Salanov!
Tank general mayoru,
İkiqat,
SSRİ Qəhrəmanı,
Pələng
HƏZİ ASLANOV!

Triyestdən gəlmişdi,
qayıtmışdı.
Döyüşdəydi MİXAYLO!
Hitleri faşizmiylə
Yerlə yeksan eyləyən
Vahiməyə qərq edən,
YENİLMƏYƏN OD-ALOV,
Əəməliyyatlarıyla
faşizmin
Gözlərinə batan ox,
Sancılıb deşən oxlov.
ULU ONDƏR döyüşdə!
İti görən gözləri
Hər döyüşən əsgərin, zabitin
Hər vaxt üstündə idi!
Mübariz İbrahimov
Döyüşdə, öndə idi!

Azərbaycan əsgərinin
Qələbəyə inamı
Misri Qılıncdan iti!
Sönməyən Zəfər əzmi
Qətiyyətdən də qəti!
Qəhrəmanlıq tariximiz
Ayaq üstündə idi!
Davamız, savaşımız
BAYRAQ üstündə idi!...
Torpaq üstündə idi!...
Tariximiz tarix boyu
Bizə xəyanət edən
Daşnaklarla döyüşdü!
Daşnak bizə qazdığı
Quyuya özü düşdü!
O quyunun dibindən
Sabaha baxa bilməz!
Ayaqları üzüldü,
Göyün üzündə qaldı!
O "Dənizdən dənizə
"Böyük ermənistan" xülyası
Bir dəfəlik
Çaş-baş gözündə qaldı!!...

Hay ordusu Murovda
Siçan kimi,
Girməyə deşik gəzdi.
Ancaq xeyri olmadı.
Girən yeri olmadı.
EləGəzdikcə gəzdi.
Dəmir Yumruq da onun
Taxta başını əzdi...

27 sentyabr
Tarixdə ZƏFƏR ANI!
Yazilmağa başladı bu gündən
QALİBİYYƏT DASTANI.
Qırxdörd günə yazıldı!
Hər bəndi, hər misrası
Pas atmayan qızıldı!..

Əsrlərə ucalır bu gün ZƏFƏR HEYKƏLİ!
Heykəlin təməlində
Döyüşlərdə qan tökən
Minlər ilə şəhidin,
Qazinin qəzası var!
Onun üfüq sinəsində
Hardan baxsan görünən,
Al Günəşə bürünən,
Uzaqlardan oxunan,
Göy Tağına toxuinan
Yenilməyən xalqımın
Əbədi imzası var!

Bu HEYKƏL ZƏFƏR ANI!
ƏBƏDİYYƏTİN ANI!
Heykəlin Baş Memarı,
AZƏRBAYCAN ORDUSUNUN
ALİ BAŞ KOMANDANI,
ƏSRİMİZİN QƏHRƏMANI,
Dövlətimin
PREZİDENT İLHAMI!
qəhrəmanlıq tariximin
"ƏBƏDİ QÜRUR YERİ,
ƏBƏDİ EHTİŞAMI!..

*Bakı, 15 sentyabr 2022 il.*